# İSTİ-İSTİ

İSTİLİK TƏCHİZATI SAHƏSİNDƏ BAŞ VERƏNLƏR

***"Azəristiliktəchizat" ASC Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında istilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 8 iyun 2005-ci il tarixli 847 saylı sərəncamına əsasən yaradılmışdır və əsas vəzifəsi Bakı şəhərində və respublikanın regionlarında yaşayış evlərinin və binalarının, təhsil, səhiyyə müəssisələrinin və digər sosial təyinatlı obyektlərin istilik təchizatını təmin etməkdən ibarətdir.***

*"Azəristiliktəchizat" ASC-nin təşkilatı jurnalına xoş gəlmisiniz! Məqsədimiz Cəmiyyətdə həyata keçirilən yeniliklər, işin müasir formada təşkili, istilik sektorunda aparılan islahatlar barədə əməkdaşları məlumatlandırmaqdır.*

*Jurnalda əməkdaşlarımızın uğurları, onlardan gözləntilərimiz, nümunəvi əməkdaşlıq modeli, habelə "Azəristiliktəchizat" ASC-nin əsas fəaliyyət xətti, icra olunan proseslərlə, həmçinin işçilərin inkişafı ilə bağlı informasiyalar dərc olunur.*

## BU-İSTİ-DƏ XƏBƏR TUTACAQSINIZ:


**ƏMƏKDAŞLARIMIZ** ☑
*Rəhbər vəzifəyə təyin olunan gənc qazi*

**DİQQƏT MƏRKƏZİNDƏ** ☑
*Şuşa şəhərində istilik təchizatı*

**YENİLİKLƏR** ☑
*Elektron sənəd dövriyyəsi sistemi*

**GÖRÜLƏN İŞLƏR** ☑
*Payız-qış mövsümünə hazırlıq*

**TƏDBİRLƏR** ☑
*AZMİU, AZTU*

**İNSAN RESURSLARI** ☑
*Mövsümi işçilər*

**ÖYRƏNƏK, İNKİŞAF EDƏK** ☑
*Abonentlər üçün faydalı məlumatlar*

**TƏRƏFDAŞLAR** ☑
*«Azəriqaz» İB, «Microsoft»*

**İSLAHATLAR** ☑
*Müşavir İnstitutu*

**KORPORATİV DƏYƏRLƏR** ☑
*Vətəndaş/Müştəri yönümlülük*




*"Azəristiliktəchizat"ı yaratdıq ki, Bakının və bütün ölkənin istilik problemini aradan qaldıraq."*

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ


Oktyabr 2022 - Bakı şəhəri, Buraxılış №1

AZƏRİSTİLİKTƏCHİZAT AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## ƏMƏKDAŞLARIMIZ

### VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI RƏHBƏR VƏZİFƏYƏ TƏYİN EDİLDİ

"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən İlham Mirzəliyevin əmri ilə Suraxanı rayonu üzrə 12 saylı İstilik Sistemləri İstismar Sahəsinə rəis təyin edilən Vətən Müharibəsi iştirakçısı Balayev Səfərəli Elçin oğlu cari ilin avqust ayında iş kollektivinə təqdim edilib. Səfərəli Balayev Füzuli, Cəbrayıl, Qubadlı və Laçının azad olunması istiqamətində gedən döyüşlərdə iştirak etmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir. Azərbaycan Neft və Sənaye Universitetinin Kimya mühəndisliyi fakültəsində ali təhsil almış Səfərəli Balayev "Azəristiliktəchizat" ASC-də çalışdığı 5 (beş) il peşakar əmək fəaliyyəti ərzində müxtəlif vəzifələrin öhdəsindən uğurla gəlmişdir.

*Müsahibəni təqdim edirik.*

**- Vətən müharibəsi iştirakçısı Səfərəli Balayev kimdir?**

- Mən – Səfərəli Balayev 19 iyul 1993-cü ildə Bakı şəhərində anadan olmuşam. Əslən bakılıyam. Hazırda Hövsan qəsəbəsində yaşayıram. 11 il 118 saylı orta məktəbdə oxumuşam. Daha sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetində bakalavr pilləsi üzrə təhsil almışam. 2015-ci ildə hərbi xidmətə çağırılmışam və 1 il orduda xidmət etmişəm. Gəncə və Ağstafa rayonlarında bölmə tibb xidmətində tibb məntəqəsinin əsgəri olmuşam. 2017-ci ildən "Azəristiliktəchizat" ASC-də işləyirəm. Zaman-zaman müxtəlif vəzifələrdə çalışmışam. Vətən müharibəsi zamanı 28 sentyabr 2020-ci il tarixindən orduya çağırılmışam. Müharibə başa çatdıqdan sonra həmin il dekabrın 28-də təxris olunmuşam.



**- Vətən müharibəsi zamanı hansı istiqamətlərdə hərbi əməliyyatlarda iştirak etmisiniz?**

- Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətlərində döyüşlərdə iştirak etmişəm. Döyüşlər zamanı tibb məntəqəsinin əsgəri kimi xidmət etmişəm. Dövlət başçısının sərəncamı ilə şəxsi igidlik və şücaət nümayiş etdirdiyimə görə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişəm.

**- 44 günün hər anı tarixdir. Müharibə gündəliyinizi necə xatırlayırsınız?**

- Müharibə zamanı düşmənlə sıx təmasda, döyüşlərdə birbaşa iştirak etməklə paralel yaralıların təxliyəsini həyata keçirirdik. Xidmət etdiyim briqadanın tibb məntəqəsinin həkim və sanitarları daim döyüşlərdə ön xətdə idi. Yaralı əsgər yoldaşlarımıza kömək, yerində ilkin tibbi yardım göstərmək, habelə döyüş meydanından çıxarmaq, maşına yerləşdirmək və maşınla döyüş meydanından çıxmaq ən çətin təhlükəli məqamlar idi. Dəfələrlə maşın zədələnir, biz də xəsarət alırdıq. Tibb xidmətində yardım təminat bölüyü olmuşuq, yaralılara yardım başlıca vəzifəmiz idi. Şəhid qardaşlarımızın nəşinin götürülməsində də köməklik göstərmişik, hətta ehtiyac olduğu zaman atışmalarda da iştirak etmişik.

**- Hazırda silahdaşlarınızla əlaqə saxlayırsınız?**

- Döyüşlərdə təbii ki, çətinliklərimiz olurdu. Amma hər bir tapşırığı böyük həvəslə yerinə yetirirdim. Sözün düzü bu istək tək məndə deyildi, ruh yüksəkliyi bütün komanda üzvlərində hiss olunurdu. Çətin, məsuliyyətli, riskli işin öhdəsindən döyüş yoldaşlarımla birgə gəlmişik. Hal-hazırda onlarla münasibətim davam edir. Vaxtaşırı danışırıq, görüşürük.

**- Tarix yazan Azərbaycan gəncliyi olaraq çiyin-çiyinə çalışdığınız iş yoldaşlarınıza nə demək istərdiniz?**

- Qürur duyuram ki, torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmişəm. Əməkdaşlara sözüm o olar ki, Allah onlara can sağlığı versin, ən əsası sağlamlıqları yerində olsun, möhkəm olsunlar. Bu şərəfli işdə uğurlar arzu edirəm, daim Qarabağdan xoş xəbərlərimiz gəlsin, biz də eşidək, sevinək.

*- Rüxsarə Babayeva*

# İSTİ-İSTİ İSTİLİK TƏCHİZATI SAHƏSİNDƏ BAŞ VERƏNLƏR

## DİQQƏT MƏRKƏZİNDƏ

### ŞUŞAYA İSTİ NƏFƏS GƏLİB

*Şuşanın yalnız torpağı, taleyi deyil, eyni zamanda infrastrukturu da ağ günə çıxıb.*
30 ildən sonra bu doğma yurda həyat qayıdıb. Şuşa suyuna, işığına və istiliyinə qovuşub. 2021-ci ildən etibarən Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada istilik təchizatının yenidən qurulmasına başlanılıb.

Mədəniyyət paytaxtında maksimal gücü cəmi 8110 kVt olan 7 qazanxana tikilib. Həmçinin, müxtəlif təyinatlı 19 binanın məhəllədaxili və binadaxili istilik və isti su təchizatı sistemlərinin yenidən qurulması işləri başa çatdırılıb.
Hazırda 4 qazanxana fasiləsiz olaraq isti su xidməti göstərir. Digər 3 qazanxananın istilik xətləri təzyiq altındadır və sistemə qoşulmağa tam hazır vəziyyətdədirlər. Mövsüm başlayan zaman həmin qazanxanalar da mədəniyyət paytaxtını istiliklə təchiz edəcəklər. Hazırda Şuşa İstilik Sistemləri İstismar Sahəsində 5 əməkdaş fəaliyyət göstərir. Mədəniyyət paytaxtımıza yenidən isti nəfəsin gəlməsi üçün "Azəristiliktəchizat" ASC-nin əməkdaşları - əslən laçınlı Elbrus Məmmədov və Şuşa şəhər sakinləri Rəhimov Səxavət, Həsənov Mehman, Məhərrəmov Nəsimi və Rəhimov Xaliq var gücü ilə çalışırlar.



*Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin şöbə rəhbəri Zaur Həsənov*
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Konsepsiyanın məqsədi işğaldan azad edilmiş ərazilərdə mövcud olan yüksək bərpa olunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etmək və ekoloji cəhətdən təmiz və enerji səmərəliliyinə malik yaşıl texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır.



Bu məqsədlə "Azəristiliktəchizat" ASC tərəfindən görülən işlər vacib hesab edilir. Ötən payız-qış istilik mövsümündə Şuşa istiliklə təchiz olunmağa başladı. 2022-2023-cü ilin istilik mövsümünə hazırlıq işləri tam olaraq yekunlaşıb və qışa tam hazır vəziyyətdədir.

## YENİLİKLƏR

### ELEKTRON SƏNƏD DÖVRİYYƏSİ

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Azəristiliktəchizat" ASC-yə Elektron sənəd dövriyyəsi sisteminin tətbiqinə başlayır.
Əsas məqsəd daxili sənəd dövriyyəsinin rəqəmsallaşdırmaq və sənədlər iş prosesində avtomatlaşdırılmış vahid mərkəzin yaradılmasıdır.

Bununla yanaşı yeni sistem müəssisənin fəaliyyətinin səmərəliliyini artırmaq, gəlir və xərcləri optimallaşdırmaq, istilik və isti su təchizatında sayğaclaşdırmanı təmin etmək, istilik təchizatı sistemlərinin bərpası və istismarını nəzərdə tutur.

Artıq ESD sisteminin tətbiqi istiqamətində müvafiq addımlar atılıb. "Azəristiliktəchizat" ASC-nin əməkdaşlarına "Kargüzarlıq və elektron sənəd dövriyyəsi sistemləri" mövzusunda onlayn təlim keçirilib. Təlim zamanı sənədlərin hazırlanması və rəsmiləşdirilməsi üçün ümumi tələblər, sənədlərin dövriyyəsinin təşkili, sənədlərin qeydə alınması və məlumat bazasının əsasları iştirakçıların diqqətinə çatdırılıb.

# İSTİ-İSTİ İSTİLİK TƏCHİZATI SAHƏSİNDƏ BAŞ VERƏNLƏR

## GÖRÜLƏN İŞLƏR

### NÖVBƏTİ İSTİLİK MÖVSÜMÜNƏ HAZIRLIQ İŞLƏRİ

İstilik mövsümünün başlanılması respublikaının dağ rayonlarında 1 noyabr, Bakı şəhəri və digər rayonlarda 15 noyabr tarixindən nəzərdə tutulub.

İstilik mövsümünə hazırlıqla bağlı təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti aşağıdakı kimidir:
- İstilik və isti su xidmətlərinin göstərilməsi üçün istismar edilən 564 qazanxana və 88 istilik məntəqəsi təftiş edilib;
- 967 ədəd dirsək, 297 ədəd ventil, 3 ədəd nasos yenisi ilə əvəz edilmiş, 41 qazan aqreqatı, 14 ədəd nasos, 190 ədəd siyirtmə, 21 ədəd mühərrik əsaslı təmir olunub;
- 732 ədəd qazan aqreqatı, 1378 ədəd nasos, 8658 ədəd siyirtmə, 674 ədəd mühərrik cari təmir edilib;
- 1002.2 km istilik xətləri hidravliki təzyiqə yoxlanılmış və 9.44 km istilik boru xətləri əsaslı təmir olunub;
- 1048 ədəd qazan aqreqatı, 173 dəst istilik mübadilə qurğusu mexaniki üsulla təmizlənmiş, həmçinin 94 ədəd qazan aqreqatı və 62 istilik mübadilə qurğusu kimyəvi üsulla təmizlənib;
- İstilik xətlərində 2978,43 $m^2$ istilik örtük qatı təmir olunmuş, 538 ədəd qazanda yeraltı və yerüstü tüstü yolları təmizlənmiş, qazanların 710,2 $m^2$ kərpic örtüyü, 471 $m^2$ izolyasiya örtüyü bərpa olunub;
- 447 ədəd kimyəvi su yumşaltma qurğuları işə hazırlanaraq tənzimlənib.

Mövsümə hazırlıq və təmir-bərpa dövründə aidiyyəti qurumların iştirakı ilə mütəmadi olaraq Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, zəruri qərarlar qəbul edilib. Şirkətin aidiyyatı xidmət sahələrinin rəhbər şəxslərindən və mütəxəssislərdən təşkil edilən xüsusi komissiya hazırlıq dövrü ərzində Bakı şəhəri və respublikanın regionları daxil olmaqla bütün qazanxana və istilik məntəqələrinə nəzarət baxışı həyata keçiriblər.



# İSTİ-İSTİ İSTİLİK TƏCHİZATI SAHƏSİNDƏ BAŞ VERƏNLƏR

## TƏDBİRLƏR

### AZMİU-DA ƏNƏNƏVİ KARYERA SƏRGİSİ KEÇİRİLİB




“Azəristiliktəchizat” ASC gənc kadrların işə cəlb edilməsi məqsədilə dövlət və özəl ümumtəhsil müəssisələrində karyera sərgilərində iştirak edib. Azərbaycan Memarlıq və İnşaat habelə Texniki Universitetdə təşkil olunan sərgilərdə Cəmiyyətin xüsusi stendləri quraşdırılıb.

Sərgilərdə “Azəristiliktəchizat” ASC-ni Kadr, Sosial və Hüquq Məsələləri, İctimaiyyətlə Əlaqələr, Texniki İstehsalat, həmçinin İnformasiya Texnologiyaları, Kompüter və Elektron Xidmətlərin Təşkili Şöbələrinin əməkdaşları təmsil edib. Stendlə maraqlanan tələbə və məzunlara Səhmdar Cəmiyyətin fəaliyyəti, kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən proqramlar, karyera imkanları barədə məlumat verilib.

İşə qəbulla bağlı 200-ə yaxın müraciət anketi toplanıb, real iş imkanları ilə maraqlanan tələbə və məzunlarla yaxından görüş keçirilib.



## İNSAN RESURSLARI

### MÖVSÜMİ İŞÇİLƏRİN QƏBULUNA BAŞLANILIB

2022-2023-cü illər istilik mövsümü zamanı qazanxana və istilik məntəqələrində çalışacaq əməliyyatçıların hazırlanması ilə əlaqədar “Azəristiliktəchizat” ASC-nin "Tədris Mərkəzi"ndə təlim kursları keçirilib.

Təlim kursları Əməyin mühafizəsi, Təhlükəsizlik Texnikası, Yanğın Təhlükəsizliyi və Texniki İstismar qaydalarının tələbləri nəzərə alınmaqla təsdiq edilmiş tədris proqramına uyğun olaraq Cəmiyyətin yüksək ixtisaslı mütəxəssisləri tərəfindən aparılıb. Tədris iki növbəli təşkil edilib və 18 yaşdan yuxarı bütün kateqoriyalardan olan şəxslərin bu təlimlərdə iştirak hüququ var.
Təlim kursları işə cəlb edilməsi nəzərdə tutulan əməliyyatçıların qazanxana və istilik məntəqələrində quraşdırılmış avadanlıqların istismarı ilə bağlı ən minimal biliklərə sahib olmaqla peşə hazırlıqlarının artırılmasına və istehsal prosesinin təhlükəsizliyinin təmin edilməsinə imkan verəcəkdir.



Təlim kursunun yekunlarına görə dinləyicilərin bilikləri və işgüzar keyfiyyətləri qiymətləndiriləcək və bunun əsasında onların Cəmiyyətin balansında olan qazanxana və istilik məntəqələrində sərbəst işə buraxılması ilə bağlı tövsiyyələr hazırlanacaqdır.

Qeyd edək ki, qazanxana və istilik məntəqəsi əməliyyatçısı vəzifələrinə 1100-ə yaxın mövsümi işçinin cəlb olunması nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, "Azəristiliktəchizat" ASC-də işə qəbul prosesində şəffaflığı təmin etmək məqsədilə dinləyicilər arasında kursların təşkili ilə bağlı anonim sorğu keçirilib. Sorğu zamanı “Qazanxana əməliyyatçısı” kursunu bitirənlər müvafiq formada öz rəy və təkliflərini bildiriblər.

## ÖYRƏNƏK, İNKİŞAF EDƏK

### İSTİLİK MÖVSÜMÜNÜN BAŞLANMASI İLƏ ƏLAQƏDAR ABONENTLƏR ÜÇÜN FAYDALI MƏLUMATLAR

Müxtəxəssis məsləhəti istilik xərclərinizin azaldılması və keyfiyyətli istilik xidməti ilə təmin olunmağa xidmət edir. Bu məqsədlə:

· Mənzildaxili və binadaxili istilik itkisinə səbəb ola biləcək sahələr mövsümdən öncə müəyyən edilərək təmir olunmalı;

· Mənzildaxili istilik sistemləri, o cümlədən qızdırıcı cihazlar təmizlənməli və yararsız hala düşmüş cihazlar yenisi ilə əvəz edilməlidir;

Qeyd:İstismara yararsız qızdırıcı cihaz yenisi ilə əvəz olunmazsa və axıntı davam edərsə, bu, şəbəkənin ümumi dövriyyəsinə təsir etməklə nəticədə mənzilinizdə, eləcə də istilik şəbəkəsinə qoşulmuş digər mənzillərdə istilik mübadiləsinin pisləşməsinə həmçinin mənzilinizə külli-miqdarda maddi ziyan dəyməsinə səbəb ola bilər.

· Mülkiyyətçilər tərəfindən binadaxili və mənzildaxili istilik sistemlərinin cari və əsaslı təmiri, həmçinin təftişi mütəmadi olaraq icra edilməli;

Qeyd: "Azəristiliktəchizat" ASC-nin məsuliyyəti qanunvericiliyə uyğun olaraq balans mənsubiyyətinə görə müəyyən edilir və bu sərhəd binanın girişində I siyirtməyə qədərdir. Binadaxili və mənzildaxili istilik sistemlərinin təmiri, bərpası və saxlanılması aidiyyatı üzrə mənzil və bina mülkiyyətçilərinin, həmçinin sosial və ya təsərrüfat hesablı obyektlərin məsuliyyətinə daxildir.

Qızdırıcı cihazların, boruların və aşağı paylama istilik sistemlərinin dəyişdirilməsi qanunvericiliyə əsasən bina və mənzil mülkiyyətçilərinə aiddir.

· İstilik mövsümündə mənzilin daxilində normal temperaturun təmin edilməsi üçün binadaxili istilik xətlərində və qızdırıcı cihazlarda toplanmış hava ən son mərtəbədəki mənzildə olan qızdırıcı radiatorların havaburaxıcısı açılaraq sistemdən tam çıxarılmalı;

Qeyd: Əks təqdirdə havanın sıxlığı suyun sıxlığından az olduğu üçün, istilik sistemi su ilə doldurularkən hava binadaxili istilik sisteminin ən üst nöqtəsinə toplanır və istiliyin bərabər və effektiv paylanmasına maneə yaradır.

· Cihazların mövcud ventilləri istehlakçı tərəfindən istilik mövsümü başlayana qədər tam işlək vəziyyətə gətirilməli, ehtiyac yaranarsa, yenisi ilə əvəz olunmalı;

· İstilik mövsümü ərzində hər-hansısa qızdırıcı cihaz sıradan çıxarsa, yeni deşilərsə, su axıntı yaranarsa, dərhal həmin qızdırıcı cihazın giriş və çıxış ventili bağlanmalı və cihaz təmir olunmalı yaxud yenisi ilə əvəz olunmalı;

· Tikinti və təmir işlərində peşəkar tikinti və inşaat mütəxəssisləri tərəfindən məsləhət görülən, tikinti və izolyasiya materiallarından istifadə edilməsi məsləhət görülür.

· İstilik mövsümündə vətəndaşlar istilik təchizatı ilə bağlı hər hansı problemlə üzləşərlərsə "Azəristiliktəchizat" ASC-nin 956 "Çağrı Mərkəzi"nə müraciət edə bilərlər.



# İSTİ-İSTİ İSTİLİK TƏCHİZATI SAHƏSİNDƏ BAŞ VERƏNLƏR



## TƏRƏFDAŞLARIMIZ

### «AZƏRİQAZ» İB

SOCAR "Azəriqaz" İstehsalat Birliyi və "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin rəhbər şəxsləri arasında görüş keçirilib. Görüş zamanı bir sıra mühüm məsələlər müzakirə olunub. "Azəristiliktəchizat" ASC-nin sədri vəzifəsini icra edən İlham Mirzəliyev bəzi proseslərin qarşılıqlı razılaşma yolu ilə icra olunmasına dair çıxış edib. O, cari ayın sərfinin müəyyən olunması üçün sayğac göstəricilərinin növbəti ayın ilk 5 günündə götürülməsi təklifini irəli sürüb. SOCAR "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev bu məsələdə lazımi dəstəyin veriləcəyini diqqətə çatdırıb. Bundan əlavə, sayğaclar dövlət yoxlamasından keçirilən zaman "Azəristiliktəchizat" ASC-nin nümayəndəsinin də bu prosesdə iştirakının təmin olunması ilə bağlı müraciət olunub. Birlik rəhbəri bunun hər bir istehlakçının hüququ olduğunu qeyd edərək, istənilən müraciətin Birlik tərəfindən təmin edildiyini vurğulayıb.

Ruslan Əliyev son aylarda "Azəristiliktəchizat" tərəfindən ödənişlərdə böyük tendensiyanın olduğunu qeyd edib. Baş direktor SOCAR "Azəriqaz" İB tərəfindən 2022-2023-cü illər üzrə istilik mövsümündə qazanxanaların mavi yanacaqla təmin olunmasında heç bir problemin olmadığını deyib. Sonda hər iki qurumun daxilində yaradılan komissiyaya sual doğuran digər məsələlərin birgə həllinin tapılmasına dair tapşırıq verilib. Eyni zamanda bu cür işçi görüşlərin bundan sonra daha sıx və intensiv şəkildə keçirilməsi ilə bağlı razılığa gəlinib.

### MICROSOFT

"Azəristiliktəchizat" ASC ilə Microsoft Azərbaycan şirkətinin nümayəndəliyi arasında görüş keçirilib. Görüşün əsas məqsədi qurumlar arasında faydalı əməkdaşlıq imkanlarının müzakirəsi və müəyyən edilməsidir.
Rəhbər şəxslər müasir rəqəmsallaşma texnologiyalarının tətbiqi, dataların toplanması və vizuallaşdırılması, rəqəmsallaşma texnologiyala- rından istifadə edilməklə idarəetmənin effektivliyinin artırılması istiqamətində fikir mübadiləsi aparıb. Habelə, İKT sahəsi üzrə təlim və kibertəhlükəsizlik məsələləri, müəssisənin ekoloji təsirinin azaldılması və ölçülməsi üzrə müasir texnologialar kimi sahələrdə yeni trendlər və əməkdaşlıq imkanları müzakirə olunub. Qeyd edək ki,əməkdaşlığın praktik əsaslarının yaradılması və bu məqsədlə görüşlərin davam etdirilməsi nəzərdə tutulur.




Həmçinin "NOVUM" , "RESPECT SOLUTIONS" və "BIRAINY" şirkətləri ilə məhsuldar görüşlər keçirilib.

# İSTİ-İSTİ İSTİLİK TƏCHİZATI SAHƏSİNDƏ BAŞ VERƏNLƏR

## İSLAHATLAR

### MÜŞAVİR İNSTİTUTU

“Azəristiliktəchizat” ASC-də aparılan müasirləşdirmə tədbirlərinin tərkib hissəsi olaraq yeni müşavirlər təyin olunub.

Sədr vəzifəsini müvəqqəti icra edən İlham Mirzəliyevin əmrinə əsasən, sədrin maliyyə məsələri üzrə müşaviri İlkin Zərbəliyev, islahatlar üzrə müşaviri isə Ramil Məhərrəmov təyin olunub.
Sədrin islahatlar üzrə müşaviri Ramil Məhərrəmov bildirir ki, yeni xidmət sahələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Həmçinin "Azəristiliktəchizat" ASC-nin daha da müasirləşdirilməsi və rəqəmsal sistemlərin qurulması da nəzərdə tutulur və yeni korporativ strategiyanın hazırlanması da gələcək planlara daxildir.

Sədrin maliyyə məsələri üzrə müşaviri İlkin Zərbəliyev "Azəristiliktəchizat" ASC–də maliyyə sahəsində rəqəmsallaşmaya dair addımların atılacağını açıqladı. Sektor üzrə şəffaflıq və hesabatlılıq təmin ediləcək və maliyyə hesabatlarının beynəlxalq uçotun standarlarına uyğun hesablanması, habelə mühasibat uçotunun aparılması əsas hədəflərdəndir. Bununla yanaşı, maliyyə sahəsində çalışanların bilik və bacarıqlarının artırılması və gənc kadrların işə cəlb edilməsi də prioritetdir.

## SUAL-CAVAB

Hörmətli oxuyucu,
təklif və iradlarınızı
ruxsara.babayeva@azeristilik.gov.az
elektron ünvanına göndərə bilərsiniz.


*Jurnalın məsul heyəti:*
İlham Mirzəliyev
Ramil Məhərrəmov
Xəqani Süleymanlı
Mircəfər Qubatov
Baş redaktor: Rüxsarə Babayeva
Qrafik dizayner: Əliikram Ələkbərzadə


## KORPORATİV DƏYƏRLƏR

### VƏTƏNDAŞ/MÜŞTƏRİ YÖNÜMLÜLÜK

Korporativ dəyərlər modeli müasir idarəetmənin bir növüdür və yeni model, zəruri mədəni dəyişikliyi idarə etmək üçün prioritetləri və ardıcıllığı aydın şəkildə əks etdirir. Mədəniyyət modeli işlədiyiniz xidmət sahəsində konkret tədbirləri müəyyən etmək üçün sizə kömək edəcək. Nəticə etibarı ilə komandanıza gedən yolu göstərmək üçün praktiki bələdçi rolunu oynayacaq. “Azəristiliktəchizat” ASC-nin 6 modeldən ibarət yeni korporativ dəyərlər modeli hazırlanmışdır:

1) Vətəndaş/müştəri yönümlülük
2) Ədalətlilik və hörmət
3) Komanda işi
4) Yenilikçilik
5) Nəticə yönümlülük
6) İnnovativlik və öyrənməyə fokuslanma

*Vətəndaş / Müştəri Yönümlülük*
Bizim diqqət etdiyimiz məqam özümüz və ehtiyacımız üçün deyil, müştərilərimiz və onların ehtiyac duyduqlarıdır. Biz müştərilərimizin reallığını anlamaq və fəal olmaq üçün vaxt ayırırıq. Bu da öz növbəsində problemləri qabaqcadan görməyə habelə, fürsətləri aşkar etməyə kömək edir.
Bütün müzakirələrdə bizim üçün vacib olan müştərilərimizin fikridir. Həmçinin prinsiplərimizdə “Müştərinizi tanıyın” düşüncə tərzinə sahib və onlarla davamlı ünsiyyətə sadiq oluruq. Müştərilərimizin dəyişən dinamikalarından və ehtiyaclarından daim xəbərdar olmağa çalışırıq. Müştərilərimizə daha çox dəyər qatmaq üçün fikir və rəy formalaşdırırıq. Biz yalnız müştəri istəklərinə cavab verməklə özümüzü məhdudlaşdırmırıq. Habelə asan həll yolu təklif etməklə kifayətlənmirik.

«Azəristiliktəchizat» ASC ölkəmizin inkişafı, rifahı və qüdrəti naminə öz fəaliyyətini gücləndirərək və müasirləşdirərək davam etdirir.